Təsdiq edirəm

ADMİU-nun rektoru

Professor Ceyran Mahmudova

"_29_" "___mart___" 2023-cü il

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

# Publik Hüquqi Şəxsi

# Akademik Dürüstlük Siyasəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin

Elmi Şurasının "_29_" "___mart___" 2023-cü il

tarixli iclasında təsdiq edilmişdir.

Bakı – 2023

## “Akademik Dürüstlük Siyasəti”

Akademik dürüstlük akademik saxtakarlığın qarşısının alınmasına xidmət edən prosesdir. Bu səbəbdən, Ali təhsil müəssisəsinin akademik fəaliyyətini təmin etmək üçün “Elm haqqında”, “Təhsil haqqında”, “Patent haqqında”, “Azərbaycan Respublikasında mülkiyyət haqqında”, “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında”, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanunları, İnzibati Xətalar, Cinayət, Cinayət-Prosessual və İnzibati Prosessual Məcəllələri kimi normativ hüquqi aktları, Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi, Universitetin Nizamnaməsi, Strateji Planı və Elmi Şurasının mövcud qərarlarına istinad edərək **Akademik Dürüstlük Siyasətini** həyata keçirməsi zəruridir.

Akademik dürüstlük – akademik məzmunlu (o cümlədən bədii yaradıcılıq) bütün işləri, yalan danışmadan, başqasından oğurlamadan və ya hər hansı digər şəxsdən kömək almadan, o cümlədən icazə verilməyən və uydurma məlumat mənbəyindən istifadə etmədən akademik fəaliyyət göstərməkdir.

Akademik dürüstlüyün təmin edilməsi professor-müəllim heyəti və tələbələrin öz fəaliyyətlərində plagiat hallarının qarşısının alınmasına, tədris prosesinin tənzimlənməsinə və stimullaşdırılmasına xidmət edir, eləcə də akademik heyətin öz davranışları ilə təhsilalanlara nümunə olması məqsədini güdür. Akademik dürüstlüyün qorunmasında məqsəd akademik heyətə və tələbələrə məsuliyyətli, etibarlı və dürüst olmağı öyrətməkdir. Akademik saxtakarlığa qarşı adekvat tədbirlərin həyata keçirilməsində məqsəd cəza deyil, fərdlərin fəal öyrənən və məsuliyyətli insan olmasına kömək etməli olan pedaqoji tədbirdir. Akademik heyəti və tələbələri saxtakar fəaliyyətlərə cəlb etməkdən qorumaq üçün universitet institusional səviyyədə dəyişikliklər həyata keçirib. Tələbələrin etik normalarının inkişafı üçün şərait yaradılıb.

Universitetin akademik dürüstlük siyasəti səhvləri aşkarlamaq və cəzalandırmaqdan öncə ədalətli akademik fəaliyyəti təşviq və təmin etmək üçün nəzərdə tutulub. Tələbələr və akademik heyət akademik saxtakarlığa meyl etdikdə, onları davranışlarının mənəvi nəticələri ilə üzləşməyə məcbur etməli və effektiv öyrənmənin əsasən dürüstlük, hörmət, ciddilik və ədalətdən asılı olduğunu bildirmək lazımdır.

Elm və yaradıcılıq fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri olan elmi etikanın qorunması, sağlam rəqabətin təmin edilməsi, elmi nəticələrin şəffaflığı, ictimaiyyətə açıqlığı və əqli mülkiyyət hüququnun qorunmasının təmin edilməsi məqsədilə ADMİU öz “Akademik Dürüstlük Siyasəti”ni müəyyən edir.

**ADMİU-nun Akademik Dürüstlük Siyasəti:**

- Akademik dürüstlük və qanun pozuntularının müəyyən edilməsi;
- Universitet tərəfindən tələbələrin dürüst, məsuliyyətli və etik cəhətdən məntiqli akademik davranışlar nümayiş etdirməsinin təmin olunması;
- Dərslərdə, tədqiqatlarda, yaradıcılıq işlərində və s. fəaliyyətlərdə özünəməxsusluğun vacibliyininin vurğulanması;
- Akademik dürüstlüyün təmin edilməsində, qanun pozuntularının aşkar edilməsində və qarşısının alınmasında vəzifə və məsuliyyətlərin müəyyən edilməsi məqsədini daşıyır.

***Akademik dürüstlüyün pozulduğu vəziyyətlər akademik qanunauyğunsuzluq kimi təfsir edilir.***

### Akademik saxtakarlıq halları

***- Birinci dərəcəli saxtakarlıq halları:***

*1. Plagiat*

*1.1. Elmi və yaradıcı plagiat* – müəllifini, götürülmə mənbəyini göstərmədən başqasının əsərlərini, elmi kəşf və ixtirasını, səmərələşdirici təklifini, innovasiya məhsulunu tam və ya qismən mənimsəmək, yaxud özününkü kimi təqdim etməkdir.

Aşağıdakı hərəkətlərdən hər hansı birini edən tələbələr plagiatda ittiham oluna və cəzalandırıla bilər:

• Başqasının məqaləsini və ya kompüter işini olduğu kimi köçürərək öz ev tapşırığı şəklində təqdim etmək;

• Pul, hədiyyə və s. müqabilində başqasının elmi və ya yaradıcılıq işlərini hazırlamaq və ya hazırlatmaq, həmçinin hazırlanmasına köməklik göstərmək;

• Kifayət qədər sənəd və ya istinad təqdim etmədən hər hansı mənbənin surətini çıxarmaq, normadan artıq sitat gətirmək və ya ümumiləşdirmək;

• Ev tapşırığını başqasına hazırlatmaq;

• Başqasının çap olunmamış əsərini və ya yaradıcılıq məhsulunu öz əsəri kimi təqdim etmək.

*1.2. Özünü-plagiat* isə tələbələrin artıq başqa bir dərsdə təqdim etdikləri və qiymət aldıqları bir tapşırığı qismən və ya tam olaraq digər bir kurs/ev işində yenidən istifadə etdikdə yaranan vəziyyətdir. Tapşırığın təqdim olunacağı müəllimdən əvvəlcədən icazə alınmadığı halda, özünü-plagiat etmək qadağandır.

*2. Köçürmə*

İmtahanlarda sualları cavablandırarkən icazəsiz mənbələrdən gizli istifadə cəhdi köçürmə hesab olunur. Aşağıda sadalanan hər bir maddə buraya aiddir:

- İmtahanda başqa tələbənin kağızına baxmaq və onun cavablarını öz kağızına köçürmək;
- İmtahanda digər tələbələrlə söhbət etmək;
- İmtahan zamanı hər hansı şəkildə məlumat və resursları paylaşmaq (qeyd vərəqlərinin götürülməsi və s.);
- Sualları və ya cavabları imtahan zamanı icazəsiz yazaraq və ya fotoşəklini çəkərək imtahan zalından çıxarmaq;
- İmtahanda mobil telefon və ya hər hansı texnoloji vasitə ilə sualları başqasına göndərmək və ya suallara cavab almaq;
- İmtahan keçirilən otağın masa və oturacaqlarına, öz bədəninə, şəxsi aksesuarlara və ya hər hansı bir yerə imtahan məzmunu haqqında qeydlər yazmaq;
- Akademik işi başqasına həvalə etmək, tək görülməli olan işi digər tələbələrlə birlikdə hazırlamaq;
- Başqasının hazırladığı ev tapşırığı və layihələr kimi hesabatları/sənədləri öz məhsulu kimi kursun müəlliminə çatdırmaq.

*3. Aldatma*

Aldatma və ya fırıldaqçılıq akademik fəaliyyətin tamamlanmasında məlumat, material, cihaz, mənbə və ya təcrübələrin icazəsiz istifadəsini nəzərdə tutur.

*4. Mövcud olmayan mənbələrə istinad etmək və ya saxta məlumat toplusu yaratmaq*

Məlumat toplusu sistemli və ya metodik qaydada tərtib edilmiş, elektron və ya digər vasitələrlə əldə oluna bilən əsərlərin, verilənlərin və digər materialların təqdiminin obyektiv formasıdır. Onun qanunsuz (icazəsiz, patentsiz və s.) surətçıxarılması, dərc edilməsi, kütləvi nümayişi, ifası və bildirişi, yayılması, o cümlədən onun yenidən işlənməsi (modifikasiyası) və mülki dövriyyəyə buraxılması üzrə digər hərəkətlər qadağandır və məsuliyyətə səbəb olur. Dərc edilmiş məlumat toplusu barədə mediada məlumat verilməsi isə onun istifadəsi sayılmır.

*5. Uydurma*

Uydurma, aldatmaq məqsədi ilə müvafiq olmayan məlumatın qəsdən istifadəsi, o cümlədən tədqiqatın və ya digər nəticələrin saxtalaşdırılması, tədqiqatın nəticəsinin tədqiqat prosesinə uyğun gəlməməsidir.

*6. Gizli sövdələşmə*

İnsanların fərdi qiymətləndirməsi üçün hazırlanan təqdimatın tələb olunanın əksinə başqa biri ilə birlikdə işlənməsi zamanı baş verən aldatma formasıdır. Bu o deməkdir ki, tapşırıq yalnız bir tələbəyə verilib, lakin həmin tapşırıq qrup halında işlənilib.

*7. Saxta sənədlərin verilməsi və istifadəsi (arayış məktubu, tibbi arayış, ixtisas sertifikatı/bal, transkript və s.)*

Hüquqi sənədlərin tədqiqatın nəticəsinin saxtalaşdırılmasını təmin etmək məqsədilə qanunsuz olaraq əldə edilməsidir.

*8. Rəqabət mühitinin pozulmasına cəhd*

- İmtahan müddətinin bitməsinə və nəzarətçinin xəbərdarlığına baxmayaraq yazmağa davam etmək;
- Başqa bir tələbənin tapşırığı, imtahanı və ya layihə işinə müdaxilə etmək;
- Digər tələbələrin istifadəsini məhdudlaşdırmaq və ya qarşısını almaq üçün kitabxana resursları, kompüterlər, laboratoriya avadanlıqları, rekvizitlər, çəkiliş avadanlıqları, molbertlər, fırçalar və digər oxşar tədris vasitələrini zədələmək və ya məhv etmək;
- Başqasının ev tapşırığı, kitabı, yaradıcılıq əsəri, imtahan vərəqi, qiymətləri, eksperimenti və ya layihəsinə müdaxilə etmək və ya mənimsəmək;
- Kurs müəlliminin razılığı olmadan başqa bir kurs üzrə hazırlanmış tapşırıq və ya layihəni tam və ya qismən təqdim etmək;
- Müəllimin ona haqsız üstünlük yaradan xətasını görüb düzəltməmək;
- Qiymətləndirilmiş tapşırıq, nümayiş edilən əsər və ya imtahan sənədində dəyişikliklər etmək;
- Rəqabət mühitini pozanlara laqeyd qalmaq.

*9. Elmi etikanın gözlənilməməsi*

Elmi etika – elmi, elmi-texniki və elmi-pedaqoji fəaliyyət sahəsində çalışan işçilərin və ya müstəqil tədqiqatla məşğul olan digər şəxslərin elmi ictimaiyyət tərəfindən qəbul olunmuş müvafiq davranış normaları, prinsipləri və əxlaq qaydalarının məcmusudur. Elmi etik qaydalara riayət olunmaması qəbuledilməzdir.

***İkinci dərəcəli saxtakarlıq halı:***

Mənbə və ya istinadların istifadəsində müəyyən edilmiş mütənasibliyin qorunmaması.

***Professor-müəllim heyəti tərəfindən hazırlanan elmi və yaradıcılıq işlərində akademik saxtakarlıq hallarına yol verilməməlidir. Akademik saxtakarlıq "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun tələblərinə əsasən hüquqi məsuliyyət yaradır.***

## Tələbələr üçün akademik saxtakarlığın nəticələri

Akademik saxtakarlıq aşağıdakı nəticələrə gətirib çıxara bilər:

- Bakalavriat səviyyəsində (öncə şifahi xəbərdarlıq edilməklə, daha sonra Universitetin elektron plagiat sistemindən qənaətbəxş nəticə əldə edə bilmədikdə) diplom işi müdafiəyə buraxılmır və iş ləğv olunur.

- Magistr və digər elmi dərəcələr ömürlük təqdim olunsa belə, elmi etikanın, müdafiə prosedurunun pozulduğu və plagiat aşkar edildiyi hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada elmi dərəcədən məhrumetmə mümkündür.

- “Elm haqqında” Qanuna əsasən əqli mülkiyyət hüquqlarını pozma cinayət, inzibati və mülki məsuliyyətə səbəb olur. Çünki “Azərbaycan Respublikasında mülkiyyət haqqında” Qanuna əsasən sosial, mədəni və başqa təyinatlı digər əmlak, intellektual və yaradıcı əməyin məhsulları mülkiyyətdə ola bilər.

- Müəlliflik və əlaqəli hüquq obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab və d.) pirat nüsxələri, “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Qanunların tələblərinin pozulması ilə hazırlanan (istehsal edilən), istifadə olunan və satılan nəzarət markaları, habelə onların hazırlanmasında (istehsal edilməsində) və yayılmasında istifadə edilən materiallar, avadanlıqlar və hüquqpozmaya səbəb olan digər vasitələr qanunla müəyyən edilmiş qaydada müsadirə edilir.

- Hüquqpozmaya yol vermiş şəxsin əqli mülkiyyətdən qeyri-qanuni istifadə ilə bağlı hərəkətlərinin qanuna zidd olduğunu bilmədiyi və ya bunu bilməsinə kifayət qədər əsaslar olmadığı hallarda da məhkəmə hüquq sahibinin çəkdiyi zərərin əvəzinin ödənilməsi barədə qərar qəbul etmək hüququna malikdir.

- Hüquq sahibinin və ya onun nümayəndəsinin əsaslandırılmış müraciəti olduqda, əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqədar mülki işə baxan məhkəmə hüquqpozmaya yol verən şəxsdən pirat və ya kontrafakt məhsulların hazırlanmasında (istehsal edilməsində), yayılmasında və əqli mülkiyyət hüquqlarını pozan xidmətlərin göstərilməsində birbaşa, yaxud dolayı yolla iştirak edən üçüncü şəxslər barədə, həmçinin belə malların yayılma kanalları haqqında informasiyaların hüquq sahibinə verilməsini cavabdehdən tələb etmək hüququna malikdir.

Müəllim hər hansı bir akademik qayda pozuntusundan şübhələnirsə, tələbə məsuliyyət daşıyır və onun işinin həqiqiliyini təsdiq edən *sübut təqdim etməlidir*.

Tələbənin işi və təqdim edilmiş sübutlar diqqətlə təhlil edildikdən sonra akademik saxtakarlıq müəyyən olunduqda, müəllim tələbənin işini qəbul etməkdən imtina etmək və tələbəyə mənfi qiymət vermək hüququna malikdir. Plagiat elementləri olan tapşırıqlar və imtahan yazıları qiymətləndirilmir. Bu da tələbənin imtahandan keçməməsi ilə nəticələnir.

Təhsilalma forması, səviyyəsi, dili, vətəndaşlığı və s.-dən asılı olmayaraq bütün tələbələr akademik dürüstlük siyasətinə riayət etməlidirlər.

**Ali Təhsil Müəssisəsinin və professor-müəllim heyətinin məsuliyyəti**

Akademik dürüstlüyü mənimsəmiş bir müəllim:

- Universitetin akademik dürüstlük siyasətini qəbul etməli və öz işlərində bunu göstərməli, tələbələr üçün nümunə olmalı;
- Hər tələbəyə bərabər davranmalı;
- Tədris və qiymətləndirmələr zamanı heç bir ön mühakimə yürütməməli və belə haldan çəkinməli;
- Tələbələrin qiymətləndirilməsində konkret meyarlar müəyyən etməli və onlar haqqında tələbələrə məlumat verməli;
- Tələbəyə də özünü qiymətləndirməyə imkan verməli;
- Tədqiqat və yaradıcılıq prosesi zamanı tələbələri düzgün yönəltmək məsuliyyəti daşımalı;
- Akademik dürüstlüyə uyğun olaraq qiymətləndirmə mühitini formalaşdırmalıdır.

Müəllimlər tələbələrə akademik dürüstlüyün əsaslarını anlamağa kömək etməkdə əsas rola malikdirlər. Akademik heyət:

- Tələbələrə plagiat, sövdələşmə və akademik pozuntu anlayışını təqdim etməli;
- Düzgün ifadə, sitat və istinadla bağlı təlimat verməli;
- Hər hansı bir akademik qayda pozuntusundan şübhələndikdə aidiyyəti üzrə müraciət etməli;
- Tələbələrin işini qiymətləndirərkən plagiatı yoxlamalıdır.

Tələbələrin məsuliyyətini və akademik dürüstlüyünü bərqərar etmək üçün müəllimlərə icazə verilir:

- Tələbələrdən dürüstlük bəyannaməsini imzalamağı tələb etmək;
- Tələbələrdən qeydlər, istinad edilən işi və ya tələbənin işinin həqiqiliyini göstərən hər hansı sübut təqdim etmələrini tələb etmək.

Müəllimə qadağandır:

- Tələbələrin yerinə tədqiqat aparmaq;
- İmtahan tapşırığının tələbənin əvəzinə hər hansı bir hissəsini yerinə yetirmək;
- Tələbə işi təqdim etdikdən sonra tələbənin cavabını düzəltmək və ya təkmilləşdirmək.

Universitet ictimaiyyətində etik mədəniyyəti, ümumi etimadı yaratmaq və saxlamaq üçün Universitet rəhbərliyi və idarəetmə heyəti:

- Akademik Dürüstlük Siyasətini həyata keçirir;
- Professor-müəllim heyəti, tələbələr və qanuni qəyyumların Akademik Dürüstlük Siyasətinin məzmunu və nəticələrindən xəbərdar olmasını təmin edir;
- Akademik saxtakarlığa qarşı adekvat tədbirlər həyata keçirir;
- Tədris və öyrənmə üçün etik mühitin yaradılmasını təmin edir;
- İmtahan işi ilə bağlı hər hansı formada akademik pozuntu barədə imtahan mərkəzini məlumatlandırır;
- Professor-müəllim heyətinin elmi və yaradıcılıq işlərində akademik saxtakarlıq halları ilə bağlı Elmi Şuraya məlumat verir.

Universitet ictimaiyyətinin bütün üzvləri akademik dürüstlük siyasətini bilməli və başa düşməlidir.

Universitetin Akademik dürüstlük siyasəti hazırlanarkən Azərbaycan Respublikasının mövcud qanunvericilik aktlarına, Universitetin Nizamnaməsinə, Strateji Planına və mövcud Elmi Şura qərarlarına istinad olunub.